"İrəvanda izim qaldı" rubrikasında İrəvanda teatr qurucularından biri, bəzi mənbələrə görə banisi, Ermənistan SSR-in əməkdar artisiti, tanınmış Azərbaycan aktyoru Yunis Nuri (Yunis Hacı Süleyman oğlu Süleymanov) barədə danışacağıq. Azərbaycan mədəniyyətinin tarixi mərkəzlərindən olan İrəvan şəhərində milli mədəni intibahın tarixi məktəb, teatr quruculuğu ilə bağlıdır.

# İrəvan Azərbaycan teatrının tarixində məşhur azərbaycanlı sima - Yunis Nuri...



Onu da qeyd edək ki, Yunis Nuri kimi səhnə xadimlərinin çiyinlərində Azərbaycan teatrı inkişaf edib.

**Hacı Süleymanın oğlu Yunis…**

Yunis Nurinin bioqrafiyasına diqqət yetirək. Aktyor barədə internet resurslarında yerləşdirilən məqalədə bildirilir ki, Yunis Nuri və ya Yunus Nuri 1878-ci il yanvarın 23-də İrəvanın Şəhər məhəlləsində, Hacı Novruzəli məscidinin yanındakı ata-baba evində şəhərin mötəbər şəxslərindən olan Hacı Süleymanın ailəsində anadan olub. Yazılanlara görə, Y. Nurinin ulu babaları Ağrı vadisində yerləşən Qəmərli rayonunun Sabunçu kəndindən olublar. İstər əcdadı, istərsə özləri, bu kəndlə bağlı olan qohumlar ya qohum olmayan azərbaycanlıların hamısı orada yaşayıb-yaşamalarından asılı olmayaraq özlərini sabunçulu adlandırıblar. Qeyd edilənlərə görə, Hacı Süleyman da, Y. Nuri də, İrəvanda doğulub böyümələrinə baxmayaraq, özlərini daima iftixarla sabunçulu hesab edərmişlər.

**14 yaşlı fəhlə…**

Məlumatlara görə, Yunis Nuri hələ beş yaşında ikən atası vəfat edib. Yunisin təlim-tərbiyəsi ilə anası Leyla xanım məşğul oldu. Maddi çətinlik içərisində yaşasa da oğlunu molla məktəbinə qoyub. Yunis burada cəmi altı il oxuyub, öz fitri istedadı, səyi və çalışqanlığı sayəsində Azərbaycan dili ilə yanaşı fars və ərəb dillərini də öyrənib. Şərq ədəbiyyatı ilə tanış olub. O, bir tərəfdən Sədinin "Gülüstan"ını, digər tərəfdən Quranı yaxşı bilir, Azərbaycan dilinə tərcümə edirdi. Maddi çətinlikdən 14 yaşlı yeniyetmə Yunis təhsilini buraxıb fəhləlik etməyə məcbur qalır.

**Sənət yollarında…**

Uşaqlıqdan istedadı, fəhmi ilə seçilən Yunis Nurinin səhnədən keçən yolu çox maraqlıdır. Onun aktyorluq fəaliyyətinə başladığı tarixə diqqət yetirsək görərik ki, aktyorluğa 1896-cı ildə İrəvanda başlayıb və ömrünün sonunadək İrəvan Azərbaycan Teatrında fəaliyyət göstərib.

O, bu teatrda M.F.Axundovun "Hacı Qara" pyesində Hacı Qara, Ü.Hacıbəyovun "Arşın mal alan"ında Soltan bəy, Molyerin "Zorən təbib" pyesində təbib, C.Cabbarlının "Sevil" pyesində Atakişi, "1905-ci ildə" pyesində Allahverdi, Q. Sundukyannın " Pepo" əsərində Giko, C.Məmmədquluzadənin "Ölülər" əsərində Şeyx Nəsrullah rollarını oynayıb.

"Zəngəzur", "Sevan balıqları" və "Anahid" filmlərinə çəkilib. Buradan görsənir ki, Y.Nurinin istedadı o qədər yüksək olub ki, onu filmlərə çəkmək məcburiyyətində qalıblar. Ermənilər kimi eqoist, ikiüzlü millətin bir azərbaycanlını filmə çəkməsi təəccüblü görsənir…

Yazlı məlumatlara görə, ömrü boyunca İrəvanda yaşayan və yaradan 1935-ci ildə Ermənistanın əməkdar artisti adını qazanmış azərbaycanlılardan biri Yunis Nuri 1950-ci il yanvarın 5-də 72 yaşında vəfat edib.

**XIX əsrin teatr intibahı…**

Yazılı mənbələrə görə, 1880-ci illərdən etibarən İrəvanda maarif-mədəniyyət qığılcımları alovlanmağa başlayır, azərbaycanlılar arasında ziyalıların, kitab və mətbuatla maraqlananların sayı artırdı. İrəvanın qabaqcıl azərbaycanlı ziyalıları əsasən şəhərdə yeganə gimnaziyanın sayca az müəllimlərindən ibarət idi. Onların arasında Qori seminariyasının məzunu, 1885-ci ildən burada işləyən Firidun bəy Köçərli də var idi. Xalqı maarifləndirməyə, mədəniyyətə çağırmağa can atan şəhər müəllimlərinin, xüsusən F. Köçərlini son illərdə Bakıda, Naxçıvanda, Şuşada və s. yerlərdə Azərbaycan dilində göstərilən teatr tamaşaları çox sevindirir və nəhayət onlar bu sahəfə öz qüvvələrini sınamağa qərar verirlər. İrəvanda Azərbaycan dilində ilk teatrın əsası böyük dramaturq Mirzə Fətəli Axundovun "Müsyo Jordan və dərviş Məstəli şah" komediyası ilə qoyuldu və böyük müvəffəqiyyət qazandı. "Müsyö Jordan və dərviş Məstəli şah" komediyasının ilk tamaşasının təşkilində və sonralar təkrarən göstərilməsində F. Köçərliyə Eynəli bəy Sultanov və "fars Abbas" kimi tanınan Mirzə Abbas Məhəmmədzadə kimi açıq fikirli yerli ziyalılar yaxından kömək göstəriblər.

1896-cı il dekabr ayının 8-də İrəvanda "Müsyo Jordan və dərviş Məstəli şah" komediyası yenidən tamaşaya qoyuldu. Erməni dramaturqu Emin Ter-Qriqoryan ermənicə "Nor dar" qəzetində dərc etdirdiyi "İrəvanda türkcə ilk tamaşa" adlı məqaləsində yazmışdı: "Dekabrın 8-ni türklərin teatr tamaşasının və ümumi xeyriyyə işinin başlanğıcı hesab etmək olar.

Dünən türk teatr həvaskarlarının kiçik bir dəstəsi birinci dəfə olaraq öz ilk tamaşasını verdi. Tamaşa, əlbəttə, türk dilində idi və özlərinin həyatından alınmışdı. Onu, din ayrı-seçkiliyi qoymadan yerli gimnaziyanın şagirdlərinin xeyrinə oynadılar. Tamaşaya gəlincə deməliyik ki, ilk təcrübə olduğuna görə, onu pis hesab etmək olmazdı. Qadınların rollarını da yoğun bığlı gənclər ifa edirdilər; bu rolları səsləri qadın səsinə daha müvafiq gələn cavan oğlanlara vermək barəsində düşünməmişdilər... İfaçılardan Şəhrəbanu xanım rolunda çıxış edən çox yaxşı idi, bu rolu bir məlahətli türk gənci ifa edirdi. Onda səhnə qığılcımı özünü göstərirdi..."

**Cəhaləti, qaranlığı qılınc kimi kəsən Nuri…**

Tədiqatçılar yazırlar ki, özündə "səhnə qığılcımı" biruzə verən "məlahətli türk gənc", gələcəyin görkəmli aktyoru Yunis Nuri idi. 18 yaşlı gənc böyük yaradıcılıq həyatının ilk xoşbəxt anını yaşamışdı. Təsadüfi deyildir ki, o özünə "Nuri" təxəllüsünü qəbul etmişdir. Cəhalətin qaranlıqlarını qovan bir nura çevrirən insanların qəlbinə və zehninə hərarət, işıq səpən teatrın fədaisi idi. 1896-cı il tamaşasından sonra İrəvan teatr həvəskarları daha sıx birləşdilər. Məhz o zamandan etibarən Yunis Nuri İrəvan teatrının ən fəal xadiminə və rəhbərinə çevrilir.

1903-cü ilin əvvəlində İrəvanın mötəbər adamlarından olan Pənah xan Makinski Yunis Nuriyə bir tamaşa hazırlamağı tapşırmışdı. Vasaq Mədətovun (Nəzmi) "Qırt-qırt" vodevilini oynamağa icazə alındı. Bu vodevil o illərdə Azərbaycan səhnəsində şöhrət qazanmış və tez-tez tamaşaya qoyulan əsərlərdən idi. Yunis Nuri ifaçıları tapmaq üçün yorulmaq bilmədən bütün şəhəri dolaşır, tamaşada iştirak etmək üçün gimnaziyanın şagirdləri ilə razılığa gəlirdi. Tamaşa səs-küy saldı, xana yaxın adamlar onun yenidən göstərilməsini xahiş etdilər. Buna görə də "Qırt-qırt" Pənah xanın imarətində bir neçə dəfə təkrar oynandı.

**Tarixi unutmayaq…**

İrəvan Azərbaycan Dövlət Dram Teatrının tarixinə aid tədiqiqatlarla tanış olarkən belə bir faktla üzləşdik. Məlumata görə,1920-ci ildə daşnak hökümətinin yıxılması və Abbasqulu bəy Şadlinskinin mübarizəsi nəticəsində İrəvanın yerli əhalisi doğma torpağına qayıda bildi. 1922-ci ildə Yunis Nuri truppanı toplayaraq teatrın fəaliyyətini bərpa etdi və teatra rəhbərliyi öz öhdəsinə götürdü.

Onu da vurğulayaq ki, 1918-ci ildə erməni daşnak dəstələrinin qərbi azərbaycanlılara divan tutması nəticəsində yerli əhali öz ev işişlərindən didərgin düşmüşdülər…Onların bir çoxu bir də qeyd edilən tarixdə geri dönə bildilər.

İrəvanda teatr fədaisi, Ermənistanın əməkdar artisti Yunis Nuri barədə danışdıq. Nuri heç zaman İrəvandan ayrılmadı, əbədi olaraq orada qaldı. Bu gün orada böyük aktyorun məzarının qalıb-qalmadığını deyə bilmərik, amma onun ruhu doğulduğu və cisminin dəfn edildiyi İrəvandadır…

*İradə SARIYEVA*

**P.S.yazıda internet resurslarında əks olunan faktlardan istifadə olunub.**